**ODLAR YURDU UNİVERSİTETİ**

**Elmi Şurasının 18 fevral 2026-cı il tarixli iclasının**

**05 saylı**

**PROTOKOLU**

Bakı şəhəri 18 fevral 2026-cı il

Elmi Şuranın sədri: prof. Ə.A.Vəliyev

Elmi katib: dos. S.S.Məmmədzadə

İştirak etdilər: Elmi Şuranın 25 üzvü

**Gündəlikdə duran məsələlər**

| |
|---|
| 1. Qış imtahan sessiyasının yekunu barədə müzakirə. |
| 2. Akademik borcların ödənilməsinin təşkili barədə |
| 3. 2025-ci ildə elmi-tədqiqat fəaliyyətinin yekunu üzrə illik hesabat. |
| 4. Universitetdə hazırlanmış yeni elmi jurnalların müzakirəsi və təsdiq edilməsi |
| 5. 2025-ci il üzrə SİP icrası ilə bağlı hesabatın müzkirəsi. |
| 6. Pedaqoji və istehsalat təcrübəsinə hazırlığın vəziyyəti barədə. |
| 7. Struktur bölmələrin tədris ilinin I yarımili üzrə hesabatlarının müzakirəsi və təsdiq edilməsi. |
| 8. Növbəti dərs semestrinə hazırlıq barədə müzakirə. |
| 9. Cari məsələ:<br>9.1.“İqtisadiyyat və iqtisadi münasibətlər” kafedrasının fəlsəfə doktoru proqramı üzrə 5308.01 “Ümumi iqtisadiyyat” ixtisasının əyani doktorantları Asadov Nidzhat Aslan oğlu və Asadov Faiaz Aslan oğlunun elmi rəhbər və dissertasiya mövzusunun müzakirəsi. |
| 9.2. Odlar Yurdu Universitetinin “İqtisadiyyat və iqtisadi münasibətlər” kafedrasının müəllimləri dos., i.e.d. Məmməd Musayev, i.e.n. Natiq Qarayev, dos. Babək Feyzullayev, Nigar İbrahimova və Nərgisə Muradova tərəfindən hazırlanmış “Biznes Strategiyası” adlı dərs vəsaitinin müzakirəsi. |

**I. Qış imtahan sessiyasının yekunu barədə müzakirə.**
**II. Akademik borcların ödənilməsinin təşkili barədə**

**Eşidildi:**
Prof. Ə.A.Vəliyev məsələnin müzakirəsini təklif etdi.
**Çıxış etdi:**
Hər iki məsələ ilə bağlı Aparat rəhbəri prof. H.D.Qəmbərov çıxış edərək bildirdi ki, 2025-ci ilin dekabr ayının 29-dan etibarən dərs prosesi bitmişdir və imtahan sessiyasına hazırlıq başlamışdır. İmtahan sessiyası ümumilikdə 4-6 həftə davam etmişdir (4 həftə imtahan sessiyası, 2 həftə 25% kəsri olanlar və üzürlü səbəbdən iştirak etməyənlər üçün). İmtahan sessiyası ərzində 29200 imtahan iştirakı nəzərdə tutulmuşdur. Ümumi olaraq 1620 imtahanda iştirak olmamışdır. Səbəb olaraq təhsil haqqının ödənilməməsi və üzürlü səbəblər olmuşdur. 24485 imtahan test üsulu ilə keçirilmişdir və 12% tələbə imtahandan kəsilmişdir. Q/test üsulu ilə Dizayn ixtisası və İngilis dilində tədrisin təşkili fakültəsində 3096 imtahan keçirilmiş və 291 tələbə kəsilmişdir. İmtahan 3 otaqda təşkil edilmişdir və hər bir kafedradan imtahana nəzarət və qeydiyyat üçün müəllimlər cəlb edilmişdir. İmtahan sessiyası müddətində 36 köçürmə halı olmuş və müvafiq tədbir görülmüş, imtahan ləğv edilmişdir. Düstur imtahanları ilə bağlı 58 appelyasiya ərizəsi qəbul edilmiş və öz həllini tapmışdır.
İmtahan prosesində rastlaşdığımız əsas problem imtahan suallarının keyfiyyətinin aşağı olması olmuşdur. Təəssüf ki, müəllimlər tərəfindən tərtib edilmiş əksər suallar aşağı keyfiyyətdədir və cavab variantlarında çox fərq var. Bu da qiymətləndirməyə mənfi təsir göstərir. Bu kimi nöqsanların aradan götürülməsi zəruridir.
2-ci məsələ ilə bağlı öz çıxışında prof. H.Qəmbərov tələbələrin akademik borcların ödənilməsi üçün bütün şəraitin yaradıldığını bildirdi.
Müzakirələrdən sonra qərar qəbul edilir.
**Qərar:**

1. Prof. H.D.Qəmbərovun hesabatı qəbul edilsin.
2. Akademik borcların ödənilməsinin təşkili qənaətbəxş hesab edilsin.

**III. 2025-ci ildə elmi-tədqiqat fəaliyyətinin yekunu üzrə illik hesabat.**
**IV. Universitetdə hazırlanmış yeni elmi jurnalların müzakirəsi və təsdiq edilməsi**
**Eşidildi:**
Prof. Ə.A.Vəliyev məsələnin müzakirəsini təklif etdi.
**Çıxış etdi:**
3-cü və 4-cü məsələ ilə bağlı elmi işlər və keyfiyyətin təminatı üzrə prorektor prof. F.S.Məmmədov çıxış edərək universitet üzrə illik görülən elmi tədqiqiat fəaliyyəti haqda məlumat verdi və bildirdi ki, müvafiq məlumat sənəd formasında Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinə göndərilmişdir. O, öz çıxışında qeyd etdi ki, son illər universitetimiz üzrə nəşrlərimiz artmışdır. Kafedralar üzrə elmi-tədqiqat işləri hazırlanmışdır.
Elmi fəaliyyətimizin digər istiqaməti unuversitetdə dərc olunan elmi jurnallarla bağlıdır. Hal-hazırda 3 kafedra tərəfindən elmi jurnal hazırlanmaqdadır, jurnalların redaksiya heyətində kifayət qədər xarici ölkələrdən olan elmi tədqiqiatçılar yer almaqdadır. Biz bu jurnallara məqalə toplayıb nəşr etdikdən sonra Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasına müraciət edərək jurnalların AAK-ın siyahısına salınmasını təmin edəcəyik.

Müzakirələrdən sonra qərar qəbul edilir.

**Qərar:**

1. Prof. F.S.Məmmədovun məruzəsi qəbul edilsin.
2. Yeni hazırlanmış elmi jurnalların nəşri tövsiyə edilsin.

**V. 2025-ci il üzrə SİP icrası ilə bağlı hesabatın müzakirəsi.**

**VI. Pedaqoji və istehsalat təcrübəsinə hazırlığın vəziyyəti barədə.**

**Eşidildi:**

Prof. Ə.A.Vəliyev məsələnin müzakirəsini təklif etdi.

**Çıxış etdi:**

5 və 6-cı məsələ ilə bağlı Strateji inkişaf və karyera departamentinin rəhbəri A.C.Əzimzadə çıxış etdi. O, bildirdi ki, bu il SİP üzrə universitet olaraq 12 uğurumuz vardır. Ümumilikdə elmlər doktoru və professorlarımızın sayı 8,3% artmışdır. Elektron resurslarımızda, proyektorla təchiz edilmiş auditoriyalada 63 % artım vardır. İnteraktiv lövhə sayımız 33 % artmışdır. Təqribən 2000 kitab elektronlaşmışdır, 165 kv. yeni yeməkxana və 48 kv. kofeşop açılmışdır. Bundan savayı tələbələrin məmnunluğu ilə bağlı sorğular aparılmışdır. Universitet üzrə SCOPUS nəşrlərimiz 52 % artmışdır, 85% isə əcnəbi tələbələrimizdə artım olmuşdur.

Təcrübə ilə bağlı isə qeyd etdi ki, bu il ilk dəfə olaraq bütün tələbələrimiz kənar müəssisələrə yerləşdirilmişdir. Bu müəssisələrdən Xarici İşlər Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Energetika Nazirliyi, Asan Xidmət, Azərbaycan Dövlət İqtisad Universiteti, Azərbaycan Dillər Universiteti və başqa müəssisələri nümunə çəkmək olar.

Ümumi olaraq pedaqoji təcrübə 3 ixtisas üzrə aparılmışdır, yerdə qalan ixtisaslarda istehsalat təcrübəsi həyata keçirilmişdir. Qeyd etmək istərdik ki, artıq bir çox tələbələrimizlə müddətli əmək müqaviləsi imzalanmış və bəzi tələbələrə tam ştat ödəniş, bəzilərinə isə yarım-ştat ödəniş edilməkdədir.

Müzakirələrdən sonra qərar qəbul edilir.

**Qərar:**

1. SİP icrası ilə bağlı hesabat təsdiq edilsin.
2. Pedaqoji və istehsalat təcrübəsinə hazırlığın vəziyyəti barədə hesabat təsdiq edilsin.

**VII. Struktur bölmələrin tədris ilinin I yarımili üzrə hesabatlarının müzakirəsi və təsdiq edilməsi.**

**Eşidildi:**

Prof. Ə.A.Vəliyev məsələnin müzakirəsini təklif etdi.

**Çıxış etdi:**

Struktur bölmə rəhbərləri çıxış edərək tədris ilinin birinci yarımili üzrə hesabtları ilə Elmi Şura üzvlərini tanış etdilər.

Keyfiyyət Təminatı və Akkreditasiya İşlıəri Departamentinin rəhbəri N.İbrahimova Təhsil Proqramlarının monitorinqi strategiyası və fəaliyyət planı, eləcə də Təhsil Proqramlarının nəticələrinin monitorinqi və strategiyası və fəaliyyət planı haqqında məlumat verdi.

Müzakirə və təkliflərdən sonra qərar qəbul edilir.

**Qərar:**

Struktur bölmələrin tədris ilinin I yarımili üzrə hesabatları təsdiq edilsin.

**VIII. Növbəti dərs semestrinə hazırlıq barədə müzakirə.**

**Eşidildi:**

Prof. Ə.A.Vəliyev məsələnin müzakirəsini təklif etdi.

**Çıxış etdi:**
Aparat rəhbəri prof. H.D.Qəmbərov çıxış edərək bildirdi ki, bu semestr məlumdur ki, təmirlə əlaqədar olaraq Bakı Dövlət Universitetindən 3000-ə yaxın tələbə universitetimizə gəlmişdir. Bu səbəbdən tələbələrin yerləşdirilməsi tam şəkildə həyata keçirilmişdir. Həm öz tələbələrimizin, həm də BDU tələbələrinin dərsləri tam şəkildə auditoriyalarla təmin edilmişdir. Cədvəllər dekanlar tərəfindən tam hazırlanmış və dərslərin keçirilməsində hələ ki, heç bir qüsur aşkarlanmamışdır.
Müzakirələrdən sonra qərar qəbul edilir.
**Qərar:**
Növbəti dərs semestrinə hazırlıq qənaətbəxş hesab edilsin.

**IX. Cari məsələ**
**Məsələ 1. "İqtisadiyyat və iqtisadi münasibətlər" kafedrasının fəlsəfə doktoru proqramı üzrə 5308.01 "Ümumi iqtisadiyyat" ixtisasının əyani doktorantları Asadov Nidzhat Aslan oğlu və Asadov Faiaz Aslan oğlunun elmi rəhbər və dissertasiya mövzusunun müzakirəsi.**
**Eşidildi:**
Prof. Ə.A.Vəliyev məsələnin müzakirəsini təklif etdi.
**Çıxış etdi:**
Elmi işlər və keyfiyyətin təminatı üzrə prorektor prof. F.S.Məmmədov çıxış edərək "İqtisadiyyat və iqtisadi münasibətlər" kafedrasının fəlsəfə doktoru proqramı üzrə 5308.01 "Ümumi iqtisadiyyat" ixtisasının əyani doktorantı Asadov Nidzhat Aslan oğlunun "Основные направления диверсификации экономики Азербайджана в контексте цифровой трансформации» və Asadov Faiaz Aslan oğlunun "Исследование влияния цифровизации государственного сектора Азербайджана на экономическое развитие страны» adlı dissertasiya mövzuları haqda məlumat verdikdən sonra dissertasiya mövzularının və doktorantlara təhkim edilmiş elmi rəhbərlərin təsdiq edilməsini təklif etdi.
Müzakirələrdən sonra qərar qəbul edilir.
**Qərar:**

1. "İqtisadiyyat və iqtisadi münasibətlər" kafedrasının fəlsəfə doktoru proqramı üzrə 5308.01 "Ümumi iqtisadiyyat" ixtisasının əyani doktorantı Asadov Nidzhat Aslan oğlunun dissertasiya mövusu "Основные направления диверсификации экономики Азербайджана в контексте цифровой трансформации» kimi təsdiq edilsin və elmi rəhbəri i.f.d., dos. Sevda Binyət qızı Məmmədova təyin edilsin.
2. "İqtisadiyyat və iqtisadi münasibətlər" kafedrasının fəlsəfə doktoru proqramı üzrə 5308.01 "Ümumi iqtisadiyyat" ixtisasının əyani doktorantı Asadov Faiaz Aslan oğlunun dissertasiya mövusu "Исследование влияния цифровизации государственного сектора Азербайджана на экономическое развитие страны» kimi təsdiq edilsin və elmi rəhbəri i.e.d., prof. Elşad Yaqub oğlu Məmmədov təyin edilsin.

**Məsələ 2: Odlar Yurdu Universitetinin "İqtisadiyyat və iqtisadi münasibətlər" kafedrasının müəllimləri dos., i.e.d. Məmməd Musayev, i.e.n. Natiq Qarayev, dos. Babək Feyzullayev, Nigar İbrahimova və Nərgisə Muradova tərəfindən hazırlanmış "Biznes Strategiyası" adlı dərs vəsaitinin müzakirəsi.**

**Eşidildi:**
Prof. Ə.A.Vəliyev məsələnin müzakirəsini təklif etdi.

**Çıxış etdi:**
İqtisadiyyat və idarəetmə fakültəsinin dekan müavini Feyzullayev Babək Xasay oğlu çıxış edərək dərs vəsaiti haqda məlumat verdi və bildirdi ki, dərs vəsaiti Elmi-metodiki Şurada müzakirə edilərək müsbət rəy almışdır. Dərs vəsaitinə verilmiş mütəxəssis rəylərini də nəzərə alaraq vəsaitin çap edilməsi üçün müzakirə edilməsini təklif etdi.

Müzakirə və təkliflərdən sonra qərar qəbul edilir.

**Qərar:**

Odlar Yurdu Universitetinin "İqtisadiyyat və iqtisadi münasibətlər" kafedrasının müəllimləri dos., i.e.d. Məmməd Musayev, i.e.n. Natiq Qarayev, dos. Babək Feyzullayev, Nigar İbrahimova və Nərgisə Muradova tərəfindən hazırlanmış "Biznes Strategiyası" adlı dərs vəsaiti çapa tövsiyə edilsin.

Sonda prof. Ə.A.Vəliyev Şura üzvlərinə iştiraklarına görə təşəkkürünü bildirərək iclasın bitdiyini elan etdi.

| | |
|---|---|
| **Sədr** | **prof. Ə.A.Vəliyev** |
| **Elmi katib** | **dos. S.S.Məmmədzadə** |